

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 117 (21.018)

*21 iyun 2014-cü il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Son illər muxtar respublikada telekommunikasiya şəbəkəsinin əhatə dairəsi xeyli genişləndirilmiş və onların 94 faizi optik şəbəkəyə birləşdirilmişdir. Muxtar respublikaya daxil olan internetin sürəti artırılmış, əhalinin, müəssisə və təşkilatların internetdən istifadə imkanları yaxşılaşmışdır.

Optik şəbəkənin genişləndirilməsi digər sahələrdə olduğu kimi, təhsildə də internetdən istifadəyə geniş imkanlar yaratmışdır. Hazırda muxtar respublikada təhsilin informasiyalaşdırılması və müasir texnologiyalarla təmin olunması sahəsində ardıcıl işlər görülür. Muxtar respublikanın ali, orta ixtisas və ümumtəhsil məktəblərinə yeni kompüter və elektron lövhələr verilmiş, kompüterlərin 83 faizi internetə qoşulmuşdur.

Muxtar respublikanın yaşayış məntəqələrinin 92 faizində genişzolaqlı, 80 faizində isə simsiz internet xidmətlərinin və eləcə də təhsil müəssisələrində zəruri avadanlıqların mövcudluğu təhsilin internet üzərindən təşkili üçün yeni imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada elektron təhsilin tətbiqini genişləndirmək, təhsil müəssisələrində virtual tədris mühiti formalaşdırmaq, tədrisin əyaniliyini və səmərəliliyini daha da artırmaq məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili və elektron təhsil texnologiyalarından səmərəli istifadə üçün zəruri tədbirlər görsün.

2. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri tədrisin səmərəliliyini daha da artırmaq məqsədilə elektron təhsilin tətbiqini nəzarətdə saxlasınlar.

3. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə sağlamlıq imkanları məhdud uşaqlar üçün Distant Tədris Mərkəzinin yaradılmasını təmin etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 iyun 2014-cü il*

## Heydər Əliyev adına Hərbi Liseydə dövlətçiliyə sədaqətli, mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrlar yetişdirilir



***Tarixin istənilən dövründə ölkələrin hərbi müdafiə sistemini möhkəmləndirmələri mühüm əhəmiyyət kəsb etmişdir. Bu gün regionda və dünyada yaranmış ümumi vəziyyət bu məsələni daha da aktuallaşdırır, dövlətçiliyə sədaqətli, mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların hazırlanmasına diqqətin artırılmasını tələb edir.***

Sevindirici haldır ki, Azərbaycan Respublikasında bu məsələ daim diqqət mərkəzində olmuşdur. Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyev hələ Sovet İttifaqı dönəmində azərbaycanlıların hərbçi peşəsinə yiyələnmələri, ölkəmizin peşəkar hərbçilərlə təmin edilməsi işinə xüsusi önəm vermişdir. Məhz ulu öndərin səyi nəticəsində çoxlu sayda azərbaycanlı gənc ötən əsrin 70-80-ci illərində keçmiş SSRİ-nin nüfuzlu ali hərbi məktəblərinə daxil olmuşdur. Bu gün Azərbaycan Milli Ordusunun generaliteti bir nəfər kimi, xalqımızın böyük oğlu Heydər Əliyevin həmin dövrdə ali hərbi məktəblərə göndərdiyi gənclərin sırasından çıxmış şəxslərdir. Eyni zamanda hərbi məktəbin yaradılması da bu işdə böyük rol oynamışdır. Belə ki, 1971-ci ilin iyun ayında Moskvanın ciddi narazılığına baxmayaraq, Azərbaycan KP MK Bürosu "C.Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbinin yaradılması haqqında" xüsusi qərar qəbul etmişdi. İxtisaslaşdırılmış hərbi internat məktəbi olan həmin təhsil ocağı milli hərbçi kadrların hazırlanması işinə əsaslı töhfələr vermişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra o dövrkü iqtidarın səriştəsizliyi, bacarıqsızlığı nəticəsində ölkədə xaos, anarxiya yaranmışdı, özbaşınalıq səngimək bilmirdi. Xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz dövlət quruculuğu prosesinə start verməklə yanaşı, mövcud olan bütün silahlı birləşmələri vahid komandanlıq altında birləşdirdi. Həmin dövrdə ciddi struktur və kadr dəyişiklikləri həyata keçirildi. MDB qoşun hissələrində xidmət edən azərbaycanlı zabitlərin Vətənə qayıtmaları təmin olundu. Hərbi məktəblərin madditexniki bazası möhkəmləndirildi, peşəkar hərbçilərin hazırlanmasına diqqət artırıldı. Bununla, ordu quruculuğunda yeni mərhələnin əsası qoyuldu.

Ulu öndər Heydər Əliyev ərazi baxımından Azərbaycandan uzaq düşmüş Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması və burada peşəkar hərbçi kadrların hazırlanması məsələsini də diqqətdən kənarda saxlamırdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qədim diyarda C.Naxçıvanski adına Hərbi Liseyin filialını açmaq barədə təşəbbüsünü dahi rəhbər Heydər Əliyev bəyənərək "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması haqqında" 13 mart 1998-ci ildə Sərəncam imzalamışdır. Tarixi sərəncamın icrası, ümumilikdə, Azərbaycanda vətənpərvər, peşəkar hərbçilərin sayının artmasına rəvac vermişdir.

İyunun 17-də Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının 10 illiyi və kursantların 2014-cü il buraxılışı münasibətilə keçirilən tədbirdə bu barədə danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: "Ölkəmiz müstəqillik əldə etdikdən və ümummilli liderimizin ali hakimiyyətə qayıdışından sonra ordu quruculuğu daha geniş vüsət almış, maddi-texniki bazanın gücləndirilməsi ilə yanaşı, hərbi kadrların hazırlanmasına da üstün istiqamət verilmişdir. Naxçıvanlı gənclərin hərbi təhsil almalarının zəruriliyindən danışan ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Azərbaycan dövlət müstəqilliyini ilbəil möhkəmləndirərək eyni zamanda ordusunun zabit heyətini peşəkar kadrlarla təmin etməyə çalışır. Bu baxımdan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılması məsələsi meydana çıxdı. Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır. Bu çətinliklər Naxçıvan Muxtar Respublikasında əlavə tədbirlər görməyimizi tələb edirdi. Bütün bunları nəzərə alaraq, biz burada Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialını yaratdıq. İnanıram ki, Naxçıvan filialı qısa bir zamanda burada yeni bir hərbi liseyin yaranması üçün əsas qoyubdur".

Fəxrlə deyə bilərik ki, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı qısa zaman ərzində Azərbaycan, hətta Cənubi Qafqaz regionu səviyyəsində çox böyük uğurlara imza atdı. Belə ki, 2001-ci ildə filialın ilk buraxılışında 50 nəfər məzundan 49-u ali hərbi məktəblərə daxil oldu. Bu, yüksək nəticə olmaqla yanaşı, həm də naxçıvanlı gənclərin hərbi peşəyə böyük maraq göstərdiyinin bariz nümunəsidir. Filialın fəaliyyətə başlaması ilə birlikdə hərbçi peşəsinə maraq göstərən muxtar respublikadakı gənclər öz arzularını reallaşdırmaq imkanı əldə etmişlər. 1999-cu ilin oktyabr ayında muxtar respublikanın 75 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn ulu öndər Heydər Əliyev C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yeni tədris korpusunun təntənəli açılış mərasimində bu reallıqları belə ifadə etmişdir: "Naxçıvanın Azərbaycandan aralı düşməsi və bir çox sahələrdə əlaqələrin çox çətin olması, əlbəttə, buradakı gənclərin gedib Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması üçün çətinliklər yaradır. ...Hərbi Liseyin burada filialının yaradılması zərurəti bir də ondan irəli gəlir ki, tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, Sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ...Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün Hərbi Liseyin filialının yaradılması çox zəruri idi... Mən özünü bu peşəyə həsr edənləri yüksək qiymətləndirirəm, onlara öz hörmət və ehtiramımı bildirirəm... Buradakı müəllim, zabit heyətinə müvəffəqiyyət arzu edirəm..."

Ulu öndərimiz inamla bildirmişdir ki, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı qısa bir zamanda burada yeni bir Hərbi Liseyin yaranması üçün əsas olacaqdır. Dahi şəxsiyyətin bütün arzularını daim həyata keçirməyə çalışan onun layiqli davamçıları bunu da reallaşdırdılar. Heydər Əliyev siyasi xəttini yaradıcılıqla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il fevralın 27-də imzaladığı Sərəncamla Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı. Bu əlamətdar hadisə ilə əlaqədar həmin il fevralın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyə gələrək bu tarixi hadisə münasibətilə lisey kollektivini təbrik etmiş, kursantlara, müəllim-zabit heyətinə ümummilli liderin adına layiq oxumağı, işləməyi, Vətənə və xalqa xidmət etməyi tövsiyə etmiş, kollektivə yeni uğurlar arzulamışdır.

Dövlət başçısının diqqət və qayğısı ilə Heydər Əliyev adına Hərbi Lisey qısa zamanda böyük inkişaf yolu keçmiş, burada nümunəvi hərbi tədris şəhərciyi yaradılmış, kursantların təhsili, sağlamlığı və fiziki tərbiyəsi üçün lazım olan bütün tədbirlər görülmüşdür. Hərbi Lisey ötən dövrlər ərzində tədris və tərbiyə sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Filial kimi 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün 656 kursant təhsil alır. Ötən dövrlərdə Hərbi Liseyin məzunlarından 1857-si ali hərbi məktəblərə qəbul olunmuşdur. Müdavimlərdən min nəfərə yaxını isə hazırda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində zabit kimi hərbi xidmətini uğurla davam etdirir. Bu, muxtar respublikanın hər bir sakinində böyük fəxarət hissi yaradır.

Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının 10 illiyi və kursantların 2014-cü il buraxılışı münasibətilə keçirilən tədbirdə liseyin inkişaf yolu barədə danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: "Biz bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına baxarkən, bu məktəbin məzunlarının hərbi xidmətdəki fəaliyyətlərini izləyərkən möhkəm iradəyə malik vətənpərvər gəncliyi görür, istərisətməz doğma Azərbaycanımızın gələcəyini düşünür və bununla iftixar hissi keçiririk. Heydər Əliyev adına Hərbi Liseyin kursantı olmaq böyük məsuliyyət və şərəf işidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar".

***Bu gün hər birimiz buna tam əminik.***

**Rauf ƏLİYEV**
*jurnalist*

*23 iyun dövlət qulluqçularının peşə bayramıdır*

# Dövlət qulluğu xalqa xidmət imkanıdır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamına əsasən, hər il iyunun 23-ü ölkəmizdə “Dövlət qulluqçularının peşə bayramı günü” kimi qeyd olunur.***

Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsində dövlət qulluqçularının daha səmərəli işləməsi, cəmiyyətdə gedən proseslərdə fəal və aparıcı qüvvə kimi iştirak etməsi vacib şərtdir. Ölkənin demokratik inkişafının əsas şərtlərindən biri də dövrün tələbinə cavab verən kadr potensialının formalaşdırılması, çevik və işlək mexanizmlər üzərində dövlət idarəçilik sisteminin yaradılmasıdır.

Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu daim diqqət mərkəzində saxlamış, ölkəmizdə dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri kimi 2000-ci ildə “Dövlət qulluğu haqqında” Qanun qəbul edilmişdir. Bu qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuş, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri müəyyənləşdirilmişdir. Qanunda dövlət qulluğu və dövlət qulluqçusu anlayışlarının mahiyyəti göstərilmiş, dövlət qulluğunun prinsipləri, habelə dövlət qulluqçusunun hüquq və vəzifələri öz əksini tapmışdır.

Ölkəmizdə “Dövlət qulluğu haqqında” Qanunun qəbulundan sonra onun icrasını təmin etmək və tətbiqi mexanizmini yaratmaq üçün normativ aktlar qəbul edilmiş, müxtəlif əsasnamə və qaydalar təsdiq edilmişdir. Həmçinin dövlət qulluğuna qəbul üçün müsabiqənin keçirilməsi, sınaq müddəti ilə staj keçilməsi, dövlət qulluqçularının attestasiyası, icbari sığortası, hakimiyyət səlahiyyətinin icrasına, qulluq stajına, ixtisas dərəcəsinə görə vəzifə maaşına əlavə haqqın verilməsi kimi məsələlər nizama salınmış, inzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu təsdiq edilmişdir. Bu sənədlər dövlət qulluğunun əsas istiqamətlərini əhatə edərək dövlət qulluqçularının fəaliyyəti üçün lazımı hüquqi zəmin yaratmış, müvafiq icra və nəzarət mexanizmini formalaşdırmışdır.

Dövlət qulluqçularının fəaliyyətinə nəzarətin həyata keçirilməsində “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyətə malikdir. Bu qanun dövlət qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanuna görə hər bir dövlət qulluqçusu öz fəaliyyətində qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutmalıdır.

Bu gün Azərbaycanda milli dövlət quruculuğu istiqamətində islahatlar uğurla davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə cavab verən çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək dövlət təminatına nail olunması diqqət mərkəzində saxlanılır.

Əsası ümummilli liderimiz tərəfindən qoyulan dövlət qulluğu siyasəti muxtar respublikamızda da uğurla davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır. Komissiyanın əsas məqsədi dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının əlavə təhsili, attestasiyası və sosial müdafiəsi sahəsində, həmçinin dövlət qulluğu ilə bağlı digər məsələlər barədə qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin etməkdir. Muxtar respublikamızda bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə uyğun dövlət idarəçiliyi sisteminin qurulmasına səbəb olmuşdur.



Komissiyanın fəaliyyəti üçün ən müasir tələblərə cavab verən iş şəraitinin yaradılması dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Belə ki, fəaliyyətə başladıqdan qısa müddət sonra komissiya üçün yeni inzibati binanın istifadəyə verilməsi, burada informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə test mərkəzinin, lokal kompüter şəbəkəsinin, mərkəzi server sisteminin yaradılması fəaliyyətin günün tələbləri səviyyəsində qurulmasına imkan verir.

Yaradılmış şəraitdən istifadə edərək işini tələb olunan səviyyədə qurmaq, muxtar respublikada dövlət qulluğu siyasətinin həyata keçirilməsində üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirmək komissiyanın qarşısında duran əsas vəzifələrdəndir. Dövlət qulluğuna qəbulun ədalətlilik, tam şəffaflıq və obyektivlik prinsipləri əsasında həyata keçirilməsi, dövlət qulluqçularının əlavə təhsili və attestasiyasının təşkili, “Etik davranış qaydaları haqqında” Qanunun tələblərinə əməl olunması da diqqət mərkəzində saxlanılır.

Muxtar respublikada dövlət qulluqçularının peşəkarlığının artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Bu məqsədlə hər il onlarla dövlət qulluqçusu idarəetmənin müasir tələblərini, bu sahədə yenilikləri öyrənmək, çalışdıqları idarə və müəssisələrdə tətbiq etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil almağa, habelə ixtisasartırma kurslarına göndərilirlər.

Muxtar respublikamızın dövlət orqanlarında bu gün 2 mindən artıq dövlət qulluqçusu işləyir. Dövlət qulluqçularının dövlət reyestrinin yaradılması və ondan istifadə edilməsi üçün texniki imkanların təmin edilməsi dövlət orqanları arasında kadrla bağlı məsələlərin çevik və operativ şəkildə həll edilməsində mühüm əhəmiyyətə malikdir.

*Bu gün respublikamızda dövlət qulluqçuları peşə bayramlarını qeyd edirlər. Vətəndaşlara xidmət etmək, onların qayğıları ilə yaşamaq dövlət qulluqçusunun əsas vəzifəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***“Hər bir dövlət qulluqçusu bilməlidir ki, o, ilk növbədə, dövlətin güzgüsüdür. Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır”.***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# “Nağdsız hesablaşmaların üstünlükləri” mövzusunda maarifləndirici tədbir



***Şahbuz Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən Şahbuz şəhərindəki “Araz” kinoteatrında “Nağdsız hesablaşmaların üstünlükləri” mövzusunda maarifləndirici tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Ələddin Ağayev açıb.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisi Mirhüseyn Seyidov tədbirin mahiyyəti barədə iştirakçılara məlumat verib.

Sonra nazirliyin şöbə rəisi Mübariz Əhmədovun “Nağdsız hesablaşmaların üstünlükləri” mövzusunda məruzəsi dinlənilib. Qeyd olunub ki, nağdsız ödəniş sisteminin inkişafı, nağdsız dövriyyənin genişləndirilməsi cəmiyyətdə maliyyə sabitliyinin qorunub saxlanılması baxımından bu gün ən zəruri məsələ hesab olunur. Ona görə ki, nağdsız ödənişlər vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapında, daşınmasında, saxlanılmasında və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında, nəticə etibarı ilə, iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır. İndiki mərhələdə nağdsız əməliyyatlar, əsasən, POS-terminallardan və internetdən istifadə etməklə plastik kartların köməyi ilə aparılır. Bu gün muxtar respublikamızda 185 minə yaxın vətəndaş plastik kartdan istifadə edir. Təəssüf ki, bir çoxları bu sistemdən istifadə etməyə maraq göstərmirlər.

Tədbirdə nazirliyin şöbə rəisi Rəşad Əliyevin “Plastik kartların növləri, ticarət və xidmət obyektlərində POS-terminallardan istifadə edilməsi, internet vasitəsilə kommunal və digər xərclərin ödənilməsi üçün internet üzərindən onlayn ödənişlərin aparılması”, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı Elçin Əliyevin “Kartların təhlükəsizliyi və bank xidmətləri” mövzularında çıxışları olub.

# Növbəti əmək yarmarkası Babək rayonunda keçirilib

Ölkəmizdə əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər insan amilinə verilən dəyər kimi qiymətləndirilir. Bu tədbirlərin bir hissəsini isə əmək bazarının inkişafı, yeni iş yerlərinin yaradılması təşkil edir. Buna görə də əhalinin səmərəli məşğulluğunun təmin olunmasında əmək yarmarkalarının keçirilməsi mühüm əhəmiyyət daşıyır. Növbəti belə əmək yarmarkası isə dünən Babək rayonunda keçirilib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, Babək rayonunda keçirilən əmək yarmarkasına 13 təşkilatdan 85 boş iş yeri təqdim olunub.

Tədbirdə rayon Məşğulluq Mərkəzinin direktoru Qurban Tarverdiyev çıxış edərək deyib ki, əmək yarmarkalarının təşkil edilməsi rayon əhalisinin məşğulluq problemlərinin təmin edilməsində mühüm rol oynayır. Məhz bu cür yarmarkalar vasitəsilə işaxtaran vətəndaşlar öz ixtisaslarına uyğun işlə təmin olunurlar.

İşaxtaran vətəndaş Nuray Həsənova belə tədbirlərin təşkil olunmasında əməyi olanlara minnətdarlığını bildirib.

Əmək yarmarkasında Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səlvər Hacıyev çıxış edərək rayonda əhalinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb.

Qeyd edək ki, yarmarkada 32 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

# Ağbulaq İstirahət Mərkəzi məktəbliləri qoynuna alıb

*Burada istirahət edən şagirdlər yaradılan şəraitdən xeyli məmnundurlar*

***Qəzetimizin 10 iyun tarixli nömrəsində “Ağbulaq İstirahət Mərkəzində bir gün” adlı yazıda burada dövlət dəstəyi hesabına valideynləri ilə birgə istirahət edən məhdud fiziki imkanlı uşaqlara yaradılan şəraitdən, onların yay tətili günlərini səmərəli keçirmələri üçün mərkəzdə reallaşdırılan tədbirlərdən bəhs etmişdik.***






Bir qədər sonra məlumat aldıq ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin V-VIII siniflər üzrə 43 nəfər şagirdinə də belə imkan yaradılıb. Yenə də üz tutduq həmin ünvana. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşı Səbuhi Hüseynov və Təhsil Nazirliyinin əməkdaşı Rəşad Əlizadə bizi istirahət mərkəzinin həyətində qarşıladılar. Öyrəndik ki, onlardan başqa, burada daha 4 nəzarətçi-müəllim də var.

Mərkəzdə dincələn məktəblilərin istirahətinin yüksək səviyyədə təşkili ilk baxışdan diqqəti çəkir. Uşaqlar burada bir neçə dərnəkdə öz güclərini sınayırlar. Burada istirahət etdikləri ötən günlərdə məktəblilər arasında şahmat, dama, futbol, gimnastika yarışları, “Mənim Naxçıvanım” mövzusunda şeir və rəsm, həmçinin “Milli rəqslərimizi tanıyaq və yaşadaq” adlı müsabiqələr keçirilib. Həmin müsabiqələrdə müxtəlif nominasiyalar üzrə birinci yerlərə sahib olan 7 məktəbliyə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının və Təhsil Nazirliyinin fəxri fərmanları verilib. İkinci və üçüncü yerlərin sahibləri də mükafatlandırılıblar.

Məktəbliləri Şahbuz rayonunun tarixi yerlərinə, təbiət abidələrinə ekskursiyalara aparmaq da tədbirlər planında öz əksini tapıb. Uşaqlar Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyində, Şahbuz Dövlət Təbiət Qoruğunda, Fərhad evində olublar. Onlara muxtar respublikamızın bu füsunkar guşəsinin qədim tarixi, fauna və florası, bugünkü inkişaf prosesi barədə ətraflı məlumatlar verilib.

Ölkəmizi öz hüdudlarından kənarda da tanıdan Xalq şairi Məmməd Arazın şeirlərinin bədii qiraət edilməsi də yaddaqalan olub.

Biz mərkəzdə olan gün məktəbliləri tədbirlər planına əsasən, Batabat Astrofizika Rəsədxanasına ekskursiyaya apardılar. Burada rəsədxananın fəaliyyəti barədə məktəblilərə geniş məlumatlar verildi. Nahar yeməyi isə Batabat yaylağında təşkil edildi. Elə buradaca nəzarətçi-müəllimlərlə həmsöhbət olduq, onların dövlətimizin gələcəyimiz olan uşaqlara yaratdığı şərait barədə fikirlərini öyrəndik. Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbin müəllimi Günel Quliyeva bildirdi ki, Ağbulaq İstirahət Mərkəzi haqqında məlumatı olsa da, bura birinci dəfədir, gəlir. Burada uşaqların mənalı istirahəti üçün yaradılmış şərait yüksək səviyyədədir. Nəzarətçi-müəllimlər də çalışırlar ki, məktəblilərin asudə vaxtının səmərəli təşkilinə nail olsunlar. Bu məqsədlə gün ərzində müxtəlif tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Əyləncəli oyunlar, viktorinalar təşkil edilir.

Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin müəllimi Cabbar Cabbarov məktəblilərə belə qayğını ölkəmizin gələcəyinə göstərilən qayğı kimi dəyərləndirdi:

– Muxtar respublikada son illərdə məktəblilərin, yeniyetmə və gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, onların dövlətçiliyimizə və müstəqilliyimizə sədaqət ruhunda tərbiyə olunması, asudə vaxtlarının səmərəli keçirilməsi üstün istiqamət verilən sahələrdən birinə çevrilib. Təbii ki, bu da bir müəllim, bir tərbiyəçi kimi məni də ürəkdən sevindirir.

Naxçıvan şəhərindəki Qızlar Liseyinin VII sinif şagirdi İnci İbrahimova burada yaxşı istirahət etdikləri üçün məktəbli yoldaşları adından minnətdarlığını bildirdi.

**Muxtar MƏMMƏDOV**

# İqtisadiyyat





***Sədərəklilər tarixən su sarıdan korluq çəkmiş, illərlə istər içməli, istərsə də suvarma suyu problemi ilə üzləşmişlər. Bura həmişə suyu çatışmayan bölgə hesab olunmuşdur. Baxmayaraq ki, yaxınlığından Araz boyda çay axır. Amma nə olsun ki, bu yurdun sakinləri əsrlərlə Arazın sularına həsrətlə baxıblar. Muxtar respublikamızda aparılan genişmiqyaslı quruculuq işlərindən Sədərək rayonuna da pay düşmüş, sədərəklilərin bu problemi də öz həllini tapmışdır.***

## Su ehtiyatı bol məhsul üçün əsas şərtdir

*Bu il Sədərək rayonunda kənd təsərrüfatı məhsulları istehsalı sahəsində daha böyük uğurlar əldə ediləcək*



Sədərək rayonunda yaradılan dördpilləli nasos stansiyaları adi suvarma sistemlərindən biri deyil, əsl möcüzədir. Sahələrə birbaşa su çıxarmaq mümkün olmadığı üçün Sədərəyin torpaqları bu üsulla suvarılır. Düzdür, bu ərazidə subartezian quyuları da qazılıb. Amma əsas güc, bir qayda olaraq, dördpilləli nasos stansiyasının üzərinə düşür.

Dördpilləli nasos stansiyası keçən əsrin 70-ci illərində inşa edilib. 80-ci illərin dağıdıcı prosesi onu da iflic vəziyyətinə salmışdı. Nəticədə, bir neçə il Sədərəkdə əkin sahələri susuz qalıb, torpaq cadar-cadar olub.

Əvvəlki nasos stansiyada çatışmayan cəhət Araz çayında suyun səviyyəsinin enməsi ilə bağlı idi. Elə olanda nasos stansiyası tam gücü ilə işləyə bilmirdi. Buna görə böyük həcmdə əsaslı təmir və yenidənqurma işlərinə ehtiyac duyulurdu. Onu da məhz muxtar respublikamızda aparılan quruculuq tədbirləri sayəsində həyata keçirmək mümkün oldu. Dövlət qayğısı ilə burada əsaslı təmir və yenidənqurma işləri aparılıb, dördpilləli nasos stansiyası yenidən işə salınıb. Bu gün "Sədərək-0", "Sədərək-1", "Sədərək-2", "Sədərək-3" və "Sədərək-4" nasos stansiyaları hesabına 3 min hektardan artıq torpaq sahəsi suvarma suyu ilə təmin edilib. Bu da həmin sahələrdə bol kənd təsərrüfatı məhsulları yetişdirməyə imkan verir. Arpaçay dəryaçasından sağ sahil kanalı ilə gələn su da Sədərək torpaqlarına həyat bəxş edir.

Bəli, "su həyatdır" deyiblər. O, maddi nemətlərin istehsalında, təsərrüfat işlərinin genişləndirilməsində, mədəni-məişət şəraitinin yaxşılaşdırılmasında həlledici rol oynayır. Nə insan, nə də təbiət susuz yaşaya bilər. Su göydən də yağır, yerdən də çıxır. Bulağa, çaya dönüb çağlayır, cümlə cahana həyat bəxş edir. Amma bəzən susuzluq fəlakət həddinə çatır. Odur ki, suyun qədrini bilmək, ondan səmərəli şəkildə bəhrələnmək lazımdır. Yalnız beləliklə dünyanı yaşıllığa qərq etmək, gülüstana çevirmək, həm də həyati ehtiyacları ödəmək mümkündür.

İki il əvvəlin söhbətidir. 2012-ci ilin may ayı idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydərabad qəsəbəsində rayon Uşaq-Gənclər Şahmat Məktəbinin yeni binasının açılışından sonra Sədərək kəndinə gələrək kənd sakinləri ilə görüşdü. Söhbət zamanı kənd ağsaqqallarından biri Sədərəkdə əkin suyu probleminin hələ də yaşandığını söylədi, muxtar respublika rəhbərindən bu məsələnin həllinə köməklik göstərməsini xahiş etdi.

Rəhbər qətiyyəti kara gəldi. Ali Məclisin Sədri rayonda həyata keçiriləcək digər quruculuq tədbirləri ilə yanaşı, Sədərək rayonunda irriqasiya işlərinin təkmilləşdirilməsi məqsədilə Araz çayından qidalanan Şir arxının üzərində yeni nasos stansiyasının da tikilməsi tapşırığını verdi.

Keçən ilin fevral ayında "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları yeni nasos stansiyasının tikintisinə başladılar.

Artıq yeni nasos stansiyası istifadəyə verilib. Bu da imkan verir ki, Sədərək rayonunda əkinəyararlı torpaqların 40 faizi dayanıqlı suvarma suyu ilə təmin olunsun. Eyni zamanda yeni nasos stansiyası hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi yenidən əkin dövriyyəsinə qatılıb. Görülən bu işlər kənd təsərrüfatının inkişafına, məhsul istehsalının çoxalmasına və rayonda əhalinin məşğulluğunun təmin olunmasına imkan verir.

Təbii ki, yeni nasos stansiyasının tikintisi Sədərəkdə su təminatının xeyli yaxşılaşdırılmasına səbəb olub. Nasos stansiyasında 1-i ehtiyat olmaqla, 3 nasos quraşdırılıb. Hər birinin gücü 550 kilovat-saat olan nasosların su sərfi saatda 1800 kubmetrdir. Ərazidə suqəbuledici hovuz tikilib. Kanaldan hovuza daxil olan su nasoslar vasitəsilə diametri 800 millimetrlik təzyiqli boru xəttinə vurulur. Təzyiqli boru xəttinin üzərində 6 suburaxıcı vardır. Həmçinin 1941 metr uzunluğunda müxtəlifdiametrli paylayıcı boru xətləri çəkilib, 73 ədəd suötürücü qapı qoyulub. Nasos stansiyasını elektrik enerjisi ilə təmin etmək üçün ərazidə transformator quraşdırılıb, 3700 metr uzunluğunda elektrik xətti çəkilib.

Yeni nasos stansiyasının açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Muxtar respublikada irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində icra olunan bu layihələr kənd təsərrüfatı sahəsində çalışanların qarşısında yeni vəzifələr qoyur. Belə ki, Sədərək rayonunda yeni əkin dövriyyəsinə qatılan torpaq sahələrindən səmərəli istifadə olunmalı, özəl, dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların əkilməsi diqqət mərkəzində saxlanılmalıdır".***

Yeni nasos stansiyasının istifadəyə verilməsi rayon sakinlərinin böyük sevincinə səbəb olub. Onlardan bir neçəsinin ürək sözlərini dinlədik. Kənd ağsaqqalı Sadıq Şahhüseynovun dediklərindən:

– Vallah, yatsaydım, yuxuma da girməzdi ki, bir vaxt gələcək, Şir arxından çöllərimizə, kəndimizə, məhəlləmizə su gələcək. Ata-babalarımız kimi, biz də əkin suyundan çox əziyyət çəkmişik. Neçə illərdir, həyətimizdə meyvə-tərəvəz yetişdirə bilmirdik. Həyət-bacamız, necə deyərlər, od tutub yanırdı. Gözlərimiz baxa-baxa əkdiyimiz tinglər, saldığımız şitillər quruyur, əməyimiz hədər gedirdi. Bu ildən bizim də üzümüzə gün doğdu.

Kənd ağsaqqalı Cəlil Əliyev söhbətə qoşulur:

– Sadıq kişi, niyə demirsən ki, dünyaya meydan oxuyan sovet dövlətinin var-karı başından aşsaydı da, 70 il ərzində səsimizünümüz heç yerdə eşidilmədi. İndi tikan-qanqal basan, cadar-cadar olan, ilanmələyən çöllərimiz gülüstana dönür. Bütün bunlar müstəqilliyimizin bəhrələridir. Bax insanın qayğısına belə qalarlar. Odur ki, əlimiz, dilimiz daim duadadır. Allah Prezidentimizin və Ali Məclis Sədrimizin ömürlərini duz dağına döndərsin.

Kənd sakini Əsgər Əliyev də fərəhini gizlətmədi:

– Pay torpağımızı alandan əkmirdik. Neçə illər sahəmizə gedib məlul-məlul baxıb geri qayıtmışam. Nəhayət, bizim pay torpağımıza da su gəldi. Yaşlı olmağıma baxmayın, hələ özümü gümrah hiss edirəm. Nasos stansiyası işə düşən gündən çiynimdə bel sahədəyəm. Suyun hesabına tarlamı cənnətə döndərəcəyəm. Mənim kimiləri kəndimizdə çoxdur. Sizə zarafat gəlməsin, daha 1500 hektar torpağımız suvarma suyu ilə təmin edilib. İndi oğul istəyirəm ki, əl-qolunu çırmalayıb işə girişsin. Elə belə də olacaq. Çoxdan bu günü gözləyirdik.

İndi hər yerdə olduğu kimi, Sədərəkdə də işlərin qızğın çağıdır. Yem bitkiləri toplanır, kartof, meyvə tədarük edilir, taxıl zəmilərində biçin aparılır, bostan-tərəvəz sahələrində becərmə işləri sürətlə davam etdirilir. Burada, əlbəttə, su təsərrüfatı işçilərinin də üzərinə mühüm vəzifələr düşür. Odur ki, biz Sədərək Rayon Suvarma Sistemləri İdarəsinin rəisi Məmməd Məmmədovla da görüşdük, bu sahədə işin təşkili ilə maraqlandıq. M.Məmmədov dedi:

– Kəndi, il boyu əkilib-becərilən torpaq sahələrini susuz təsəvvür etmək mümkün deyil. Ona görə də çalışırıq ki, kanal və ona xidmət edən qurğular daim saz vəziyyətdə olsun. Yaxşı bilirik ki, hər hansı bir nasazlıq və ya fasilə yaranarsa, o zaman işin ümumi ahəngi pozulur, kimsə narazı qalır, sahələr sudan korluq çəkir. Bu isə yolverilməzdir.

Rayonumuzda su təsərrüfatı işçiləri öz vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Suvarma kanallarının və arxların lildən təmizlənməsi, daşqın və sel sularına qarşı mübarizə, daş-beton bəndlərin təmiri, həyətyanı və əkin sahələrinin suvarılması, rayon əhalisinin içməli suya olan tələbatının ödənilməsi və idarəmizin funksiyasına aid olan digər bütün işlər həm 2013-cü ildə, həm də cari ilin indiyədək olan dövründə lazımi səviyyədə yerinə yetirilib.

Son vaxtlar su probleminin həlli ilə əlaqədar rayonda xeyli iş görüldüyünü bildirən həmsöhbətim dedi ki, 6 nasos stansiyasında 22 nasos aqreqatından 19-u təmir olunub. Cari ilin ilk 5 ayında hidrotexniki qurğularda, nasos stansiyalarında 12 min 252 manatlıq əsaslı və cari təmir işləri aparılıb. Rayonda 5 suvarma kanalının ümumi uzunluğu 32 min metrdir. Bu il 7 min 891 metr uzunluğunda kanalın lili təmizlənib. Bundan əlavə, bölgədə 90 kilometr uzunluğunda suvarma arxları mövcuddur ki, onların da təmizlənməsi diqqət mərkəzində saxlanılır.

İdarə rəisi fikrini belə tamamladı:

– Kənd adamı üçün ən böyük sevinc yüksək nəticə, götürdüyü bol məhsuldur. Suvarmanın keyfiyyətli təşkili, fermerlərlə, sahibkarlarla qarşılıqlı, əlbir fəaliyyət öz bəhrəsini verir. Bu il Sədərək rayonunda kənd təsərrüfatı məhsulları istehsalı sahəsində daha böyük uğurlar əldə ediləcəkdir. Artıq ilk nəticələr məlumdur. Məsələn, kartof, meyvə, yem bitkiləri məhsulları istehsalı ötən illərin müvafiq dövrü ilə müqayisədə xeyli yüksəlib. Bu isə bizim sevincimizi ikiqat artırır. Deməli, dövlət qayğısı, həmçinin zəhmətimiz hədər getmir. Xüsusilə üzərində yeni nasos stansiyası inşa olunan Şir arxı bolluq, bərəkət mənbəyidir.

Bu günümüz üçün gərəkli, dövlətimizin daim diqqət mərkəzində olan bir məsələ barədə söz açdıq; özü də sərhəd rayonunun timsalında. Sədərəklilər nikbindir. Çünki görülmüş işlər var, yerinə yetirilmiş vəzifələr var. Tarlalarda yetişdirilən bol məhsul da dediklərimizi təsdiq edir.

**Cəfər ƏLİYEV**

## "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətində keyfiyyətli məhsullar istehsal olunur

***Muxtar respublikamızın təbii sərvətlərindən səmərəli istifadə olunmaqla yeni emal və sənaye müəssisələri həyata vəsiqə alır, daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli yerli məhsullar istehsal edilir, əhalinin məşğulluğu təmin olunur, maddi rifahı daha da yaxşılaşır. Belə istehsal müəssisələrindən biri də Şərur rayonunun Məmmədsabir kəndində fəaliyyət göstərən "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətidir.***




Müəssisənin direktoru Zakir Məmmədov söhbətində bildirdi ki, uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə istehsal olunan məhsullara artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və bunun nəticəsi olaraq əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi, daha müasir texnoloji avadanlıqların alınıb gətirilməsi zərurəti yaranmışdır. Digər sahibkarlıq subyektləri kimi, bu müəssisə də dövlət qayğısından bəhrələnmişdir. Müəssisəyə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 2012-ci ilin mart ayından başlayaraq mərhələlərlə, ümumilikdə, 180 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Şərur rayonunun Məmmədsabir kəndində istehsal müəssisəsi üçün daha əlverişli yerdə 4950 kvadratmetr torpaq sahəsi ayrılmış, burada müasir layihə əsasında 630 kvadratmetr ərazidə emal və istehsal sexləri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana, laboratoriya və digər yardımçı otaqlardan ibarət ikimərtəbəli bina tikilib istifadəyə verilmişdir. Həmçinin müəssisənin həyətində 420 kvadratmetr ərazidə taraların saxlanılması üçün çardaq qurulmuş, meyvə, giləmeyvə və təbii bitkilərdən hazırlanmış məhlulların Günəş şüası dəymədən saxlanılması üçün yeraltı anbar tikilmiş, həyətdə abadlıq işləri aparılmışdır. 2013-cü ilin iyun ayından fəaliyyətə başlayan müəssisədə 3 istehsal sahəsi – limonad, likör və araq istehsalı üçün hər cür şərait yaradılmış, Türkiyə Respublikasından alınmış istehsal gücü saatda 3 min ədəd şərti butulka olan müasir texnoloji avadanlıqlar quraşdırılmış, istehsal prosesi avtomatlaşdırılmışdır.

Müəssisədə müxtəlifhəcmli şüşə butulkalarda olmaqla, tərxun, armud, limon, üzüm, portağal şirələrindən hazırlanmış 6 çeşiddə limonad, qara tut, albalı, ərikdən hazırlanmış 3 çeşiddə likör, şaftalı, heyva, qara tut, zirinc, kəklikotu, baldırğandan hazırlanmış 6 çeşiddə və buğda spirtindən hazırlanmış 5 çeşiddə araq istehsal edilir. Müəssisədə istehsal edilən likör 0,1, 0,2, 0,25, 0,5, limonad və araq isə 0,5 litrlik şüşə butulkalarda satışa çıxarılır. Xüsusi dizayn və nəfis tərtibatla bəzədilmiş taralar Bakı şəhərindən, Rusiya, Moldova və Ukrayna respublikalarından, qapaqlar isə Bakı şəhərindən, Türkiyə və Moldova respublikalarından idxal olunur.

Müəssisədə məhsulun keyfiyyətinə laborator nəzarət təmin olunmuşdur ki, burada da xammal və hazır məhsulların ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bir sözlə, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyətə başlayan müəssisədə istehsal prosesi avtomatlaşdırılaraq, standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunmuşdur.

Satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də keyfiyyəti ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların ölkəmizin digər regionlarında və xarici bazarlarda satışa çıxarılması nəzərdə tutulur. Elə bu səbəbdəndir ki, keçirilən biznes-forumlarda və sərgilərdə müəssisənin nümayəndələri yaxından iştirak edir, bu sahə üzrə qabaqcıl təcrübəyə malik şirkətlərlə fikir mübadiləsi aparılır, biznes əlaqələri qurulur. Həyata keçirilən tədbirlər öz bəhrəsini vermiş, 2013-cü il noyabr ayının 1-2-də Gəncə şəhərində keçirilən II Beynəlxalq Şərab Festivalında "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyəti diplomla təltif olunmuşdur.

**Kərəm HƏSƏNOV**

# Şəhərimiz evimizdir



***Yazını qələmə alarkən Naxçıvanın uzun illər bundan əvvəlki küskün və miskin görünüşü gözlərim önündə canlandı. İndi o Naxçıvandan əsər-əlamət qalmayıb. Qaranlıqdan bir işıq doğub sanki doğma diyarıma. O işıq ki, onun nuru gələcək əsrlərə də bəs edər. Bu isə naxçıvanlıların arzuladığı günlərdir. İndi doğma diyarım qaranlıqdan azad olmuş məmləkətdir. Salınan yaşıllıqlar qoca Şərqin ulu torpağını daha da ecazkar edir. Hər yeri salxım-salxım sallanan akasiya çiçəklərinin ətri bürüyüb. Demək olar ki, hər küçədə bir yeniliklə qarşılaşırsan.***

Müasirliklə qədimliyi özündə əks etdirən, arxitektura üslubuna görə bir-birini tamamlayan müasirtipli binalar, səliqəli daşlar düzülmüş səkilər, rahat yollar qurubyaratmaq əzmi ilə döyünən ürək sahibi zəhmətkeş insanların bacarıqlı əllərinin məhsuludur. Sayrışan ulduzlar kimi sıralanan milli ornamentlərlə bəzədilmiş küçə fənərləri zülmət gecələri nura boyayır, görənləri öz sehrinə salır.

Naxçıvan şəhəri bütün fəsillərdə gözəl görünür. Ancaq yaz və yay fəsillərinin özünəməxsusluğu şəhərimizə ayrı-ayrı çalarlar gətirir. Bu aylarda insanlar parklara axışır, gözəlliklərdən zövq alırlar. Bəs bizim üçün yaradılan bu gözəllikləri qoruya bilirikmi?

Təəssüf ki, bu sualımıza bəzi məqamlarda "bəli" deməkdə çətinlik çəkirik. Çünki bəzən şəhərimizdəki hər hansı bir istirahət guşəsini, park və ya xiyabanı gəzərkən oranın çirkləndirildiyinin, məişət tullantılarının hər tərəfə dağıdıldığının şahidi oluruq. Tullantı qutularının ən yaxında olmasına baxmayaraq, nədənsə bəzi sakinlərimiz bu qutulardan istifadə etməkdə "çətinlik çəkir", müxtəlif məişət tullantılarını hara gəldi, atırlar. Bu da minbir əziyyətlə abadlaşdırılmış ərazilərdə xoşagəlməz görüntülərə səbəb olur.

Başqa bir məqama diqqət yetirək. Hər bir məhəllədə azı üç ədəd tullantı qutusu qoyulur. Qutu qoyulmayan məhəllələrdə isə günün müəyyən saatlarında maşınlar gəlir və məişət tullantıları toplanır. Lakin bəziləri üçün bu qutuların qoyulması, deyəsən, əbəsdir. Çünki qutu boş olduğu halda, tullantını onun ətrafına atırlar. Bunun da nəticəsində bir yığın məişət tullantısı meydana çıxır, ətrafda xoşagəlməz qoxular yaradır. Bu da həmin ərazilərdə estetik baxımdan çirkin bir mənzərə yaradır.

Peşəmlə əlaqədar, demək olar ki, hər həftə muxtar respublikanın müxtəlif rayonlarında oluram. Yol boyu maşınlardan atılmış butulkalar, lazımsız əşyaları görmək mümkündür. Hər gün bu "səhvlər" aradan qaldırılır. Yəni atılan bu cür tullantılar toplanılır və ərazidən kənarlaşdırılır. Deməli, müxtəlif təşkilatlar var-qüvvələri ilə şəhər və kəndlərimizi son dərəcə təmiz, abad saxlamağa çalışır, hətta yolların, yaşayış massivlərinin təmizliyinə, park və xiyabanlarımızın gözəlliyinə, təbiətimizin qorunmasına ciddi diqqət yetirirlər. Yaradılan gözəllikləri göz bəbəyi kimi qorumaq haqqında düşünənlərin sayı isə onu yaradanların sayından az olmamalıdır. Unutmamalıyıq ki, yerə atdığımız kiçik bir məişət tullantısını da elə bizdən biri əyilib yerdən götürür. Bu mənada özümüz özümüzə hörmətlə yanaşmalıyıq.

Dünyanın ən sivil ölkələrində məişət tullantılarını hara gəldi, atanlar, öz yaşadığı məkanı yaşanılmaz hala gətirənlər inzibati cəzalardan daha çox, ictimai qınaqla qarşılaşırlar. Yəni bu hərəkəti edənlər üçün ən böyük cəza yoldan keçən bir vətəndaşın haqlı iradıdır. Təbii ki, bundan sonra həmin insan bir daha elədiyi səhvi təkrar etmir, başqalarından etiraz eşitməkdənsə, qaydalara uymağa səy göstərir. Deməli, bu məsələdə ictimai qınağın böyük rolu vardır.

Bir sözlə, muxtar respublikamızın yaşıllıqlarını qorumalı, şəhərimizin təmizliyinə hər birimiz diqqət yetirməliyik. Görülən işlərin, çəkilən zəhmətin boşa getməməsi üçün hamımız birlikdə çalışmalı, şəhərimizin daha təmiz və səliqəli, abad görünməsi üçün əlimizdən gələni etməliyik. Məncə, bu da milli özünüdərkin, milli mənafelərin şəxsi mənafelərdən üstün tutulmasının bir formasıdır. Bundan başqa, bizi əhatə edən mühitin təmizliyi elə biz vətəndaşların sağlamlığı, gələcək nəsillərin ekoloji cəhətdən təhlükəsizliyi deməkdir. Muxtar respublika rəhbərinin gərgin zəhməti ilə yaradılan, tərifi, şan-şöhrəti uzaq-uzaq ellərdə belə, ağızdolusu danışılan Naxçıvanın gözəlliyinə ləkə salmamağı düşünməliyik. Ən önəmlisi bu gözəlliyin real iştirakçısına çevrilməyi bacarmalıyıq: ağac əkməliyik, bağ salmalıyıq, kimlərinsə səhvi ucbatından ekologiyamıza vurulan azacıq zərbənin belə, qarşısını almağa tələsməliyik!!!

**Sara ƏZİMOVA**

# İdmanın inkişafı diqqət mərkəzindədir

Naxçıvan Dövlət Universitetində bu ali məktəbdə idmanın müxtəlif növlərinin inkişafına həsr olunmuş tədbir keçirilib. Tədbirdə çıxış edən rektor, professor Saleh Məhərrəmov bildirib ki, ümummilli lider Heydər Əliyevin sosial sferanın bütün sahələrində olduğu kimi, idmanın inkişafı istiqamətində də müəyyənləşdirdiyi dövlət siyasəti tezliklə öz bəhrəsini verib, Azərbaycan idmançıları beynəlxalq çempionat və olimpiadalarda parlaq qələbələr qazanıblar. Azərbaycan gənclərinin fiziki sağlamlığına, hərbi-vətənpərvərlik ruhunda yetişməsinə və asudə vaxtlarının səmərəli təşkilinə bu gün də hərtərəfli dövlət qayğısı göstərilir, idman sahəsində ixtisaslı mütəxəssis hazırlığı daim diqqət mərkəzində saxlanılır. Rektor son yarışlarda qələbə qazanan idmançı tələbələri təbrik edərək gənclərin düzgün fiziki və mənəvi-psixoloji tərbiyəsində idmanın rolundan danışıb.

Fiziki tərbiyə və idman oyunları kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Məmmədəli Rəhimov çıxışında universitetdə digər sahələr kimi, gənclərin fiziki tərbiyəsinə də xüsusi əhəmiyyət verildiyini, güclü maddi-texniki baza yaradıldığını vurğulayıb. O, Naxçıvan Dövlət Universitetinin son bir ildə idman sahəsində qazandığı uğurlara nəzər salaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə, 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş idman yarışlarının, muxtar respublika birinciliklərinin qələbələrlə yaddaqalan olduğunu bildirib. Belə ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol yarışlarında universitetin futbol komandası həm Naxçıvan Muxtar Respublika çempionatının qalibi, həm də Naxçıvan kubokunun sahibi olub. İdmançı tələbələr futbol, badminton, cüdo, sərbəst güləş, şahmat, atletika və digər idman növləri üzrə keçirilən respublika və muxtar respublika səviyyəli yarışlarda universiteti uğurla təmsil ediblər.

Məmmədəli Rəhimov bildirib ki, 2014-cü ildə ali məktəb tələbələrinin respublika çempionatında sərbəst güləş üzrə Röyal Nəbiyev və Sadiq Səfərov II, Ramid Yaqubov və Məmməd İbrahimov isə III yerləri qazanıblar. Cüdo yarışı üzrə Allahverdi Rəsulzadə də III yeri tutmağa müvəffəq olub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təşkil olunmuş 15 İyun – Milli Qurtuluş Günü münasibətilə keçirilən velosiped yürüşü üzrə Naxçıvan Muxtar Respublikası açıq birinciliyində idmançı tələbələrimiz yüksək nəticələr göstərərək universiteti muxtar respublika birincisi edib, Malik Hənifəyev isə şəxsi birincilikdə qələbə qazanıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyası ilə birgə təşkil etdiyi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş qaydasız döyüş üzrə yarışda universitetin təmsil edən Kərim İsmayılov 70 kq çəki dərəcəsində ikinci yerə layiq görülüb. Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş "Universiada-2014" proqramı çərçivəsində keçirilən idman yarışları da yaddaqalan olub. Naxçıvan Dövlət Universitetində gələcək nəslin fiziki tərbiyəsi, bədən tərbiyəsinin tədrisi ilə məşğul olacaq kadr hazırlığı bu gün də uğurla davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov velosiped yürüşü üzrə Naxçıvan Muxtar Respublika açıq birinciliyində yüksək nəticələr göstərərək universitet komandasını muxtar respublika birincisi etmiş tələbələrə – Malik Hənifəyevə, Fərxan Orucova, Elgün Məmmədova, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə keçirilən qaydasız döyüş üzrə yarışda 70 kiloqram çəki dərəcəsində ikinci yerə layiq görülmüş Kərim İsmayılova diplom və hədiyyələr təqdim edib.

**Mehriban SULTAN**

***Xalq təqviminə uyğun olaraq, xalqımız qış və yaz fəsillərini mərasim (çillə) və bayramla (Novruz) qarşılayır. Nədənsə yay və payız fəsillərinin qarşılanması üçün bir mərasim və yaxud bir bayram keçirilməmişdir. Keçirilmişdirsə də, bu günə qədər nə elm aləminə bəllidir, nə də xalq yaddaşında qalmışdır. Ancaq son dövrün araşdırmalarından və toplanmış etnoqrafik materiallardan məlum olur ki, Ordubad bölgəsində yayın girməsi ilə əlaqəli "susəpən" adlı mərasim qeyd edilərmiş.***

*Xalq yaradıcılığı*

# Yay fəsli ilə bağlı təqvim adəti – susəpən bayramı

İyun ayının 21-də – yazın bitib, yayın girdiyi gün Ordubad bölgəsindəki Gilançay vadisinin yuxarı hissəsində "Susəpən" adlı mərasim keçirilirmiş. Mərasim zamanı ətraf kəndlərin sakinləri də şənliyə qoşulurmuşlar. Mərasimdə bu bölgənin əhalisi səhər erkəndən Gəmiqaya yaxınlığındakı Bibiqətər pirini, Qara piri ziyarət edərmiş. Ziyarət üçün əvvəlcədən hər cür hazırlıq işləri görülərmiş. İnanc yerlərinə gedərkən yol boyu insanlar bir- birlərinin üzərinə su çiləyərmişlər. Pirlər ziyarət edildikdən sonra insanlar Gəmiqaya abidəsinə doğru üz tutarmışlar. Əsl şənliklər burda başlanarmış. Xüsusi bayram yeməkləri hazırlanar, yallı gedilər, at yarışları və digər oyunlar keçirilərmiş. Küsülülər məclisə gətirilərək barışdırılarmış. XX yüzilliyin 80-ci illərinə qədər yaşadılan bu mərasimin gecədən səhərə qədər davam etdiyi söylənilir. Maraqlı məqamlardan biri yayın ilk günü – ayın 22-si insanların Gəmiqaya ətrafına yığışıb Günəşi qarşılamaları idi. Deməli, mərasim iki gün qeyd edilirmiş. Bayramın ikinci günü birinci günə nisbətən daha təmtəraqlı və adamların çoxluğu ilə seçilərmiş. Mərasimdə iştirak edənlər Günəş doğmamış qayalarda olan şehi üzlərinə sürtərmişlər. Sonra "Gözəllər" adlanan çeşmədən su götürər və bu suyu müqəddəs hesab etməklə növbəti ilin həmin vaxtına qədər saxlayar, ondan bərəkət və sağlamlıq vasitəsi kimi istifadə edərmişlər. Qeyd edək ki, buradan hər gün deyil, məhz həmin gün götürülən suya inam olmuşdur. Məlumdur ki, su ilə təmizlənmə, suçiləmə, suyatapınma Naxçıvanda axır çərşənbənin səhəri günü həyata keçirilir. Bu da islamdan öncə xalqımızın suya tapınması, suya kult kimi baxması ilə əlaqədardır.

Mərasimdə Gəmiqayanın dörd tərəfində qurban kəsilər və kəsilmiş qurbanları qohumlara, qonşulara, kimsəsizlərə paylayarmışlar. Dörd tərəfə qurban kəsmək adətinə "Bilqamıs" dastanında da rast gəlinir. Bəhs olunan mərasimlə bağlı digər türk xalqlarında da oxşarlıq mövcuddur. Çuvaşlarda bu mərasimə bənzəyən "Tarla qurbanı" adlı mərasim vardır. Mərasim zamanı insanlar yayın başlanğıcında su kənarlarına toplaşıb göyə qurban verərdilər. Mayya mədəniyyətinin daşıyıcıları da müasir təqvimlə iyun ayının 22-də, yəni ən qısa yay gecəsində qurbanvermə mərasimi keçirərdilər.

Mərasim başa çatanda camaat yenidən çiləşə-çiləşə geri dönər, bununla da, mərasim bitmiş hesab olunarmış.

Maraqlıdır ki, mərasim ancaq Gəmiqayada məhz yay girəndə keçirilərmiş. Naxçıvanın heç bir yerində yayın girməsi ilə bağlı mərasim keçirilmir. AMEA-nın müxbir üzvi Hacı Qadir Qədirzadə yazır ki, bu mərasimin Nuh Peyğəmbərlə bağlılığı vardır, ancaq o, astronomik təqvimlə də səsləşir. Onu da qeyd edək ki, susəpən mərasimi haqqında ilk məlumatı Hacı Qadir Qədirzadə vermişdir.

Mərasimin "susəpən" adlandırılması, burada icra edilən adət və inanclar mərasimin genetik cəhətdən Azərbaycan türkləri ilə bağlı olduğunu ciddi şəkildə sübut edən amillərdəndir. Çünki hansı adətə, ənənəyə, inanc sisteminə nəzər salsaq, orda Azərbaycan türklərinə bağlılıq görürük.

Əslində, bu kimi mərasimlər milli mədəniyyətimizin tarixi səhifələri olmaqla, eyni zamanda xalqımızın dünyagörüşü və inamları ilə bağlı tapınma ayini, mərasim şənliyi və əxlaq qaydaları toplusudur.

**Asəf ORUCOV**
*tarix üzrə fəlsəfə doktoru*

***İtmişdir***

Kəngərli rayonunun Qıvraq qəsəbə sakini Vəliyev Bayram Süleyman oğlunun adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 26 oktyabr 2006-cı il tarixdə verilmiş 108013000649 reyestr nömrəli daşınmaz əmlakın pasportu və 0001681 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

"Naxçıvan-2" Voleybol İdman Klubunun möhürü itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi 43-də yaşayan Allahverdiyev Elnur Nəriman oğlunun adına olan 3433 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

"Şərq qapısı" qəzetinin kollektivi Ramiz Qurbanova, atası **XUDAQULUNUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 548